# Konkur yarışları zamanı mehtərlər, idmançılar və məşqçilər üçün təhlükəsizlik qaydaları haqqında

# TƏLİMAT

Aşağıdakı təhlükəsizlik qaydalarına riayət olunmalıdır:

- At ilə hər zaman sakit və mülayim davranmaq;
- Atı yəhərləmədən öncə başına yüyən salmaq;
- At tövlədən çıxarılan andan tövləyə salınanadək cilovu əldən buraxmamaq;
- Atı cilovla apararkən yalnız atın sol tərəfində hərəkət etmək;
- Atı cilovla apararkən öndə hərəkət edən atla ara məsafəsini (ən azı 2 (iki) at boyu) saxlamaq;
- Atın belinə qalxmazdan əvvəl yəhərin qarınaltı kəmərini yoxlamaq;
- At çaparkən üzəngiyə sərbəst daxil olan ayaqqabılardan və baş ölçüsünə uyğun kaskadan istifadə etmək;

**Məşqçi:**

- Yarışlarda iştirak edəcək idmançılarını tibbi, atlarını isə baytar müayinəsindən keçirməlidir;
- Yarışlarda iştirak edəcək idmançılarının və mehtərlərinin təhlükəsizlik qayları ilə tanış olmasını təmin etməlidir;
- Yarış başlamazdan 1 (bir) saat öncə yarışlarda iştirak edəcək idmançıları ilə birgə yarış arenasının vəziyyəti ilə tanış olmalıdır.

**İdmançı:**

- Yarış başlamazdan 1 (bir) saat öncə yarış arenasının vəziyyəti ilə tanış olmalıdır;
- Yarışa başlamazdan əvvəl yəhər, yəhəraltı kəmər, yüyən, üzəngi kəməri, kaska və digər yarış ləvazimatlarının istifadəyə yararlı olduğuna əmin olmalıdır;

---

**Təlimatlarla tanış oldum. Təhlükəsizlik qaydalarına riayət etməzsəm bütün hallarda cavabdehliyi öz üzərimə götürürəm. İmzamla təsdiq edirəm.**

**Adı, soyadı və atasının adı:**

**Vəzifəsi:**

**Tarix:**

**İmza:**

- Yarış və məşq zamanı kaskadan istifadə etməlidir;
- Kaskanı yalnız atdan düşdükdən sonra çıxara bilər;
- Atını yarış arenasına salarkən yalnız öz yolu ilə hərəkət etməlidir;
- Yarış zamanı atla sakit davranmalıdır;
- Məşq zamanı digər idmançıların qarşısına çıxmamalı, onlara mane olmamalı, mübahisə aparmamalı və münaqişə etməməlidir.

**Qeyd: Azərbaycan Respublikasının Atçılıq Federasiyası (ARAF) tərəfindən təşkil olunan Konkur Yarışlarında iştirak edən mehtərlər, idmançılar və məşqçilər bu təlimatda göstərilənlərə əməl etməlidir. Baş verə biləcək hər hansı bədbəxt hadisədə ARAF məsuliyyət daşımır.**

---

**Təlimatlarla tanış oldum. Təhlükəsizlik qaydalarına riayət etməzsəm bütün hallarda cavabdehliyi öz üzərimə götürürəm. İmzamla təsdiq edirəm.**

**Adı, soyadı və atasının adı:**

**Vəzifəsi:**

**Tarix:**

**İmza:**